

# SİZ XALQIMIZIN QƏHRƏMANLIQ, YENİLMƏZLİK, MÜBARİZLİK RUHUNU ÖZÜNƏ QAYTARDINIZ

**Nəyi nə vaxt, necə etməyi çox gözəl bilən, dünya siyasi arenasında xüsusi yeri olan diplomat, müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Heydər Əliyevə**

**M Ü R A C İ Ə T**

Cənab Ali Baş Komandan! Dünya hərb tarixində yeni səhifə açmış 44 günlük II Qarabağ Vətən Müharibəsində iki müxtəlif cəbhədə apardığınız uğurlu döyüşlərdən qələbə ilə çıxmağı bacardınız. Komandanlıq etdiyiniz uğurlu döyüş əməliyyatları ilə yanaşı, həm də bütün ağırlığını bilavasitə öz üzərinizə götürdüyünüz ikinci cəbhədə-informasiya cəbhəsində xalqımızın haqq səsini buxovlayan informasiya blokadasını rəşadətlə darmadağın edə bildiniz.

Müharibə ərzində dünyanın ən aparıcı informasiya kanallarına verdiyiniz çox saylı müsahibələr zamani nümayiş etdirdiyiniz diplomatik məharət, dünyəvi dillərdən, hətta dil sahiblərinin özlərindən üstün şəkildə istifadə edə bilmək bacarığınız, Azərbaycan tarixi ilə bərabər dünya tarixinə dərindən bələd olmağınız, ermənipərəst jurnalistlərin qərəzli, provakasiyon suallarına siyasi iradə və təmkinlə verdiyiniz cavablar sonda qarşı tərəfi sizə qibtə etməyə məcbur edirdi.

BMT-nin Azərbaycan Respublikasının işğal olumuş ərazilərini qeyd-şərtsiz qaytarılması barədə qətnamələri bir qərinəyə yaxın müddət ərzində diplomatların söz oyununa çevirilmişdir. Dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının söz oyununa çevrilmiş, həyata vəsiqə ala bilməyən bu qətnamələr sizin təkbaşına siyası iradənizlə Dəmir Yumruqlu ordumuzun gücü hesabına həyat keçdi. 44 günlük müharibə ilə işğal altındakı torpaqlarımızla yanaşı xalqımızın qəhrəmanlıq, yenilməzlik, mübarizlik ruhunu özünə qaytardınız.

Küreyi-ərzin azman siyasətçisi, layiqli davamçısı olduğunuz Ulu Öndər Heydər Əliyevin arzularını, vəsiyyətini gerçəkləşdirdiniz.

İndi gözəl Qarabağımızda, o cümlədən Azərbaycanın Mədəniyyət Mərkəzi, müqəddəs Şuşa şəhərində Sizin ucaltdığınızın Azərbaycan bayrağı dalğalanır.

Artıq mən məcburi-köçkün, qaçqın deyiləm, icazə verin bizə yaşatdığınız bütün bu sevinc hissləri üçün Sizə özümün və soydaşlarımın adından dərin minnətdarlığımı bildirim. Ulu Tanrı Sizi qorusun, Ordumuzu qorusun, Xalqımızı qorusun!

Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərmizə şəfa versin!

***Bərzani Əli oğlu Abbasov,***
***Laçın rayon Şeylanlı kənd sakini***

***Hər bir xalq görkəmli şəxsiyyətləri ilə tanınır. Onlar xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirir. Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyev məhz belə bənzərsiz dahi şəxsiyyətdir.***




# AZƏRBAYCAN XALQININ SEVGİSİNİ QAZANMIŞ ULU ÖNDƏR

Tarixə Azərbaycan xalqının ümummilli lideri kimi daxil olmuş bu əvəzolunmaz insan liderlərə məxsus ən ali keyfiyyətlərə malik idi. İllər keçdikcə, ümummilli liderimiz Heydər Əliyevin böyüklüyünü, müdrikliyini, xalqını, vətənini necə bir məhəbbətlə sevdiyini daha çox anlayırıq. Bu dahi şəxsiyyətin fəaliyyəti bütün bəşəriyyətin xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr olunmuşdur.

Ulu Öndər Heydər Əliyev çox maraqlı, mürəkkəb, zəngin, keşməkeşli bir ömür yolu keçmiş, həyatın bütün çətinliklərindən qalib çıxmış, öz zəhməti, zəkası, fitri qabiliyyəti ilə ən yüksək zirvəyə yüksəlmişdir. Bu uca zirvənin yolları daşlı-kəsəkli olsa da, polad iradəsi, dönməz xarakteri, şəxsiyyət bütövlüyü bu zirvəni fəth etməkdə ona kömək etmişdir. Bütün dünyanın etiraf etdiyi böyük dövlət xadimi, görkəmli siyasətçi, müstəqil Azərbaycan dövlətinin memarı, zəmanəmizin nadir şəxsiyyətlərindən biri Heydər Əliyev çox zəngin irs qoyub getmişdir. Onun Azərbaycana otuz ildən çox rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. O, bütün həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr etmişdir.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycan Respublikasının Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) memarlıq fakültəsində təhsil almışdır. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir. 1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. Bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o, Leninqrad şəhərində xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. Heydər Əliyev iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xətə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olmuşdur.

Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.

Bu dahi insanın fəaliyyətinə, keçdiyi ömür yoluna nəzər salanda aydın görürük ki, Heydər Əliyev bir çox siyasi xadimin edə bilmədiyini gerçəkləşdirmiş, müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə XX və XXI əsrlərin tanınmış siyasi xadimləri arasında öz layiqli yerini tutmuşdur. Xalqımızın yetirdiyi nadir dövlət xadimlərindən olan Heydər Əliyev yaşadığı bütün həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Onun ürəyi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Ulu öndər bir dövlət başçısı kimi Azərbaycanın ən çətin, üzücü anlarında onu xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, ölkəsini bəlalardan qurtarmağı bacarmışdır. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində məhz Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması onun rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir. Bütün sadlanan bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır.

2023-cü il mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2023-cü ilin ölkəmizdə ”Heydər Əliyev İli” elan edilməsi haqqında sərəncam imzalayıb. Bu sərəncam Heydər Əliyev şəxsiyyətinə, onun tarixi xidmətlərinə verilən qiymətdir.

Bu gün Azərbaycan ümummilli lider Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətlərini nəzərə alaraq, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermiş Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev xalqımızın qəlbində əbədiyaşarlıq qazanmışdır. Azərbaycan xalqının ürəyindən gələn bu sözlər ona ümumxalq məhəbbətinin ifadəsi oldu: ”Nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var Heydər Əliyev ürəklərdə yaşayacaqdır”.



***Bəhram ŞİRİYEV,***
***Əməkdar müəllim***

# AZƏRBAYCANIN QÜDRƏTLƏNMƏSİ ULU ÖNDƏRİN VƏTƏN SEVGİSİNDƏN İRƏLİ GƏLİRDİ

Ulu öndərin 1993-cü ildə ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə müstəqilliyimiz dəhşətli fəlakətlərdən xilas oldu, əbədi və dönməz xarakter aldı. Məhz ümummilli liderin müdrik siyasəti ilə Azərbaycan müasir inkişaf yoluna çıxdı, dünya tarixində öz imzasını uğurla atdı. Tarixdə elə nadir şəxsiyyətlər olur ki, onlar yalnız zamanın gərgin və təlatümlü məqamlarında meydana çıxır, bütöv bir ölkənin, xalqın məsuliyyətini öz üzərinə götürməklə, böyük missiyanı şərəflə yerinə yetirərək ”Xilaskar” adını qazanırlar. Belə nadir insanlardan biri, XX əsrdə Azərbaycan xalqının tarixinə öz adını qızıl hərflərlə yazdıran ulu öndər Heydər Əliyevdir.

1969-cu ilin iyulun 14-də ümummilli liderimiz Heydər Əliyev respublikanın siyasi rəhbərliyinə yüksəlib, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilib. Bununla da sovet Azərbaycanının tarixində böyük dönüş dövrü başlandı. Məhz həmin tarixdən etibarən respublika həyatının bütün sahələri köklü islahat və sürətli inkişaf yoluna qədəm qoyub. Doğma xalqının böyük təəssübkeşi olan Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirib. Azərbaycanın müasir tarixinin böyük bir dövrü ulu öndər Heydər Əliyev şəxsiyyəti, onun böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır.

O zaman zəngin idarəçilik təcrübəsi olan ümummilli lider Heydər Əliyev Azərbaycanı ağır vəziyyətdən çıxarmaq üçün qəti addımlar atdı. Bu böyük şəxsiyyət dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək respublikanın uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırladı və onların icrasına nail oldu. Nəticədə 1969-1982-ci illər sovet Azərbaycanının tarixinə ən parlaq tikinti-quruculuq illəri kimi yazıldı. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş başladı. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirildi.

Həmin illərdə Azərbaycan nəhəng tikinti meydanını xatırladırdı. Yüzlərlə yaşayış binaları, mehmanxanalar, xəstəxanalar, elmi-tədqiqat mərkəzləri, məktəblər, mədəniyyət sarayları, nəhəng sənaye obyektləri, iri istehsal kompleksləri, su anbarları, dəryaçalar, Kür su kəməri, yollar, o cümlədən yurdun şimal-qərb ucqarını paytaxta bağlayan Bakı-Balakən dəmir yolu və adını çəkmədiyimiz minlərlə digər tikililər ulu öndər Heydər Əliyev zəkasının, onun yorulmaz fəaliyyətinin, varlığına hopmuş Vətən sevgisinin nəticəsi idi.

1969-1982-ci illərdə Azərbaycanın əldə etdiyi ən mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan güclü kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması idi. Həmin dövrdə SSRİ-nin 170 qabaqcıl ali məktəbinə 3500 azərbaycanlı gənc göndərilmişdi. Hər il təhsil almaq üçün respublikamızın hüdudlarından kənara orta hesabla 800 tələbə yola salınırdı.

Ulu öndər hələ o zaman qovuşacağımız müstəqilliyimizi görür, doğma Vətənini bu günlər üçün hazırlayırdı. Bəli, böyük düha sahibi yeni - bugünkü Azərbaycanı hələ o vaxtdan qurmağa başlamışdı. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, sovet imperiyasının dağıldığı dövrdə Azərbaycan öz inkişaf



səviyyəsinə və çoxsahəli iqtisadiyyatına görə SSRİ-nin müttəfiq respublikaları içərisində özünü yaşatmağa qadir ikinci respublika kimi tanınırdı. Bu isə, əslində, müstəqilliyin siyasi və iqtisadi əsaslarını gündəmə gətirirdi.

Heydər Əliyev deyirdi: ”Müstəqil inkişaf yoluna qədəm qoymuş respublikada artıq köhnə sosialist sistemindən imtina edilməli, yeni mütərəqqi sistem yaradılmalı, iqtisadi siyasət gücləndirilməlidir, yəni bazar iqtisadiyyatına keçilməli, iqtisadiyyatın bütün sahələrində, o cümlədən kənd təsərrüfatında islahatlar aparılmalıdır, təsərrüfat sahəsində iqtisadi islahatlar yeganə yolumuzdur”.

Yeri gəlmişkən, Heydər Əliyevin Azərbaycana rəhbərliyi illərində diqqətçəkən bir məqama da nəzər salmaq istərdim. Metro tikintisi sahəsində uzun illər çalışan bir şəxs kimi deyə bilərəm ki, bu gün paytaxt sakinlərinin və qonaqların geniş istifadə etdikləri Bakı Metropoliteninin tarixində ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri var. Təsadüfi deyil ki, paytaxtda metro tikintisi ideyası ötən əsrin 40-cı illərində ortaya çıxsa da, bu iş yalnız 60-cı illərdə reallaşıb, amma bununla belə yeraltı ictimai nəqliyyatın əsas inkişaf mərhələsi 70-80-ci illərdə - Azərbaycana Heydər Əliyev kimi uzaqgörən liderin rəhbərlik etdiyi dövrdə baş verib.

”Bu gün yeni texnologiyalar tətbiq olunur. Biz Azərbaycanda, Bakıda bu texnologiyalardan istifadə etməliyik. Əvvəlki təcrübə çox qiymətlidir. Ancaq bugünkü təcrübə, əlbəttə ki, həm işlərin daha da böyük səmərə ilə görülməsinə xidmət göstərəcək, həm də maksimum keyfiyyət təmin olunacaqdır”, - deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu əsas vəzifələrdən biri metro tikintisində həm də istismar zamanı ən müasir və qabaqcıl texnologiyaların tətbiqidir.

Son illərdə Azərbaycanda sosial-iqtisadi həyatın digər sahələrində də mühüm uğurlar əldə edilib. Respublikamız sürətli inkişaf yolu keçərək, dünyanın nüfuzlu ölkələrindən birinə çevrilib, Cənubi Qafqazın lider dövləti kimi tanınıb. Bu isə beynəlxalq təşkilatların hesabatlarında, sosioloji mərkəzlərin rəy sorğularında, eləcə də kütləvi informasiya vasitələrində təqdir edilib, respublikamızın davamlı tərəqqi yolunda olduğu xüsusi vurğulanıb. Məsələn, ABŞ-ın nüfuzlu eksperti Hilları Kreymerin sözlərinə görə, geniş infrastruktur, texnoloji inkişaf və yeniliklər son illərdə Azərbaycan Prezidenti İlham Əliyevin neft kapitalını böyük məharətlə insan kapitalına çevirə bilməsi sayəsində mümkün olub.

***Fərmayıl Vəliyev,***
***Abşeron Sukanal İdarəsinin rəisi***